


> **“Azərbaycan elə bir ölkədir ki, orada müxtəlif dinlər mövcuddur, xalqlar həmişə sülh, həmrəylik, əməkdaşlıq şəraitində yaşayıblar”**
>
> **İlham ƏLİYEV**

Dünyanın müxtəlif bölgələrində milli zəmində baş verən qarşıdurma və münaqişələr, təriqətlərin cəmiyyətin siyasi həyatına, dövlətlərin idarəçilik sisteminə təsir göstərmək cəhdləri bu gün də aktual mövzu olaraq qalır. Lakin ölkəmizdə bu sahədə aparılan siyasət, keçirilən çoxsaylı beynəlxalq tədbirlər bütün dünyaya örnək olacaq milli və dini tolerantlığın gücləndirilməsi, multikulturalist dəyərlərin təbliği, dini zəmində ekstremizmə, ayrı-seçkiliyə qarşı birgə mübarizə uğurlu nəticələr verir. İndi cəsarətlə demək olar ki, multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir. Azərbaycanda multikulturalizmin möhkəmləndirilməsi və qorunmasında xüsusi rolu olan ümummilli lider Heydər Əliyevdən sonra Prezident İlham Əliyev bu məsələyə xüsusi önəm verərək həmin siyasəti uğurla davam etdirərək daha da təkmilləşdirib. İndi tolerantlıq cəmiyyətin əxlaq kodeksinə çevrilib ki, nəticədə ölkəmizdə yaşayan müxtəlif millətlərin nümayəndələri Azərbaycanı özlərinin doğma vətənləri hesab edirlər. Bunu Gədəbəy rayonunun Novosaratovka kəndində yaşayan malakanların timsalında daha aydın görmək olar.



*Gədəbəyin Novosaratovka kəndində yaşayan malakanlar Azərbaycanı ikinci vətənləri hesab edirlər*

# Ayrılarmı könül candan...







## *200 illik mehribançılıq və dostluq*

XIX əsrin əvvəllərində rus çariçası II Yekaterinanın dini inanc fərqliliyinə görə Saratov şəhərindən sürgün etdiyi malakanların bir hissəsi bu ərazidə məskunlaşıb. Onlar yerli əhali ilə mehriban ünsiyyət qurmaqla yanaşı, özlərinin adət və ənənələrini, mətbəxlərini, hətta musiqilərini də yaşadırlar. Məskunlaşdıqları vaxtdan yerli şəraitə uyğun əkin-biçinlə, heyvandarlıqla məşğul olurlar. Doğrudur, sovetlər birliyi dağıldıqdan sonra onların sayı bir qədər azalıb. Ötən əsrin 90-cı illərinin əvvəllərində ağır iqtisadi şəraitlə bağlı kənd sakinlərinin bir qismi Rusiyaya, bir qismi isə Azərbaycanın böyük şəhərlərinə köçüblər. Lakin dövlət qayğısını hər an hiss edən yaşlı nəslin nümayəndələri Novosaratovkanı tərk etməyiblər.

Novosaratovka Gədəbəyin həmsərhəd kəndlərinə gedən yolun üstündə, səfalı bir yerdə yerləşir. Burada son illər bir sıra infrastruktur layihələrinin həyata keçirilməsi nəticəsində uzun illərdən bəri sakinləri narahat edən problemlərə demək olar ki, son qoyulub. Bir üzü dağlara boylanan kənddə evlər planlı şəkildə tikildiyindən Gədəbəyin füsunkar təbiətinə geniş bir panorama açılır. Nizamlı əkin sahələri burada yaşayanların əməksevərliyindən xəbər verir.

Kənd ağsaqqalı Fərmayıl Paşayev söhbət zamanı dedi ki, o, 1948-ci ildə burada dünyaya gəlib. Gözünü açandan qeyri-millətlərin nümayəndələri ilə səmimi və mehriban şəraitdə yaşayıblar. Bir-birilərinin xeyir və şərində iştirak ediblər. Bir uşaq bağçasında tərbiyə olunub, bir məktəbdə təhsil alıblar.

Kənddə yaşayan malakanlar azərbaycanlıların Novruz şənliklərini, azərbaycanlılar isə Pasxa bayramlarını malakanlarla birgə qeyd edirlər. Malakanlar öz milli paltarlarını geyinir, milli xörəklərini, eləcə də milli rəqslərini və mahnılarını şənlik iştirakçılarına təqim edirlər. Eyni ilə azərbaycanlılar da malakan bayramlarında fəallıq göstərirlər.

Qış mövsümündə kəndin mədəniyyət evindən tez-tez xoş musiqi sədaları ətrafa yayılır. Malakanların folklor ansamblı burada maraqlı musiqi və rəqs nömrələri ilə çıxış edirlər. Yayda isə bu çağır təbiətin qoynunda keçirilir. Kənd sakinlərinin asudə vaxtı beləcə əyləncəli olur.

Tatyana Stepanova dedi ki, mən azərbaycanlılardan çox raziyam. Elə bu yaxınlarda atam Pavel Stepanov rəhmətə gedəndə kənddə yaşayan bütün azərbaycanlılar yas mərasimində iştirak etdilər. Mənə belə gəlir ki, insan o yeri doğma hesab edir ki, orada ona isti qucaq açırlar. Onda özünü xoşbəxt hiss edirsən. Novosaratovka da malakanlar üçün artıq 200 ildir ki, beləcə doğmadır. Çünki burada azərbaycanlıların isti münasibətini hər an hiss edirik.

Novosaratovka kənd bələdiyyəsinin sədri Fəridə Əliyeva kənddə malakanlarla azərbaycanlılar arasında ailə quranların da az olmadığını bildirdi. Məsələn, 30 ildir ki, azərbaycanlı Cahangir Xudaverdiyev Mariya Alatsova ilə ailə həyatı qurub və övladları var. Ailə özünü xoşbəxt hesab edir. Tanya ilə Məhəmməd Əliyev ailəsindən 3 övlad, Nadya ilə Güləli Mürsəlov ailəsindən 5 övlad, Nadejda ilə Rəhim Allahverdiyev ailəsindən isə 4 övlad dünyaya gəlib.

## *Kənd sakinlərinin təhsili və sağlamlığı diqqət mərkəzindədir*

Hazırda kənddə bir xəstəxana fəaliyyət göstərir ki, burada da 29 nəfər tibb işçisi çalışır. Kənddə bir mədəniyyət evi, iki kitabxana, bir polis məntəqəsi, bir elektron ATS sakinlərə xidmət göstərir. Keçən il burada müasir standartlara cavab verən 480 yerlik müasir məktəb binası inşa edilərək istifadəyə verilib. Hazırda 100 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. Orta məktəb istilik sitemi ilə təchiz edilib. Burada təhsilin müasir standartlara cavab verməsi üçün bütün şərait yaradılıb. Rus və Azərbaycan bölmələrində ümumilikdə 300-dən artıq şagird təhsil alır. Keçən il məktəbi bitirən 32 məzundan 15 nəfəri ali məktəblərə sənəd vermiş və onlardan 11 nəfəri tələbə adını qazanmışdır. Sevindirici haldır ki, məzunlardan 2 nəfəri 600-dən yuxarı bal toplayıb.



Məktəbin direktoru Şərafət Cəlilova deyir ki, onlar üçün yüksək şərait yaradılıb. Məktəb lazım olan avadanlıqlarla təmin edilib. Şagirdlərin təlim-tərbiyəsi ilə 53 müəllim məşğul olur. Məktəbdə hər 10 şagirdə bir kompüter düşür. Uşaqların müasir texnologiyalara münasibətləri də yüksək səviyyədədir. Onların bu istiqamətdə biliklərini zənginləşdirmək üşün müasir təhsil metodlarından istifadə edilir. Hazırda məktəb müəllimlərinin içərisində ali təhsilli rus pedaqoqları da var. Biologiya müəllimi Valentina Bıçkova, ibtidai sinif müəllimləri Taisa Stepanova və Mariya Alatotsova kollektiv arasında böyük nüfuza malikdirlər. Məktəbdə şagirdlərdə vətənpərvərlik ruhunu yüksəltmək üçün maraqlı tədbirlər həyata keçirilir. Bunun üçün xüsusi guşə də yaradılıb. Tez-tez Gədəbəyin tarixi yerlərinə ekskursiyalar təşkil edilir və qədim abidələr haqqında ətraflı məlumat verilir.

Kənddə fəaliyyət göstərən xəstəxana binası da əsaslı təmirdən sonra istifadəyə verilib. Burada çalışan 29 nəfər tibb işçisindən 5-i ali təhsilli həkimdir. İnsanların sağlamlığı keşiyində dayanan tibb işçiləri üçün hər cür şərait yaradılıb. İndi təcili tibbi yardım üçün müraciət edənlərin rayon mərkəzinə getmələrinə ehtiyac qalmayıb. Burada kənd sakinlərinə peşəkar həkimlər və tibb bacıları tərəfindən hərtərəfli xidmət göstərilir. Milliyyətcə malakan olan Mariya Vorobyova 20 ildən artıqdır ki, kənd xəstəxanasında tibb bacısı işləyir. Onun əlləri ilə yüzlərlə xəstə şəfa tapıb. Kənddə xeyirxah bir insan kimi onun haqqında xoş sözlər söylədilər.

## *Dövlətin verdiyi pay torpaqlarından səmərəli istifadə olunur*

Kənd sakinlərinin dolanışığı torpaqla bağlıdır. Hər il əkin sahələrində yetişdirilən kənd təsərrüfatı məhsullarının bir qismi satılsa da, bir qismi ailənin tələbatını ödəmək üçün saxlanılır. Rayon icra hakimiyyətinin Novosaratovka üzrə icra nümayəndəsi Hüseyn Əliyev söhbət zamanı dedi ki, kənddə 606 hektar əkinə yararlı torpaq sahəsi var. Demək olar ki, sakinlər bir qarış belə torpaq sahəsini boş qoymurlar. Əsasən Gədəbəyin iqliminə uyğun olan kartof, eləcə də taxıl və tərəvəz məhsulları yetişdirirlər.

Hər il heyvandarlıq məhsulları istehsalı sahəsində də uğurlu göstəricilərə nail olunur. Hazırda kənddə 14 min 218 baş xırdabuynuzlu, 3 min 45 baş iribuynuzlu heyvan saxlanılır.

Kənd sakini Lyübov Vorobyova deyir ki, dövlətin kənd təsərrüfatının inkişafı üçün etdiyi bütün güzəştlərdən malakanlar da yararlanırlar. Sahibkarlığa Kömək Milli Fondunun ayırdığı güzəştli kreditlərdən, hər hektara görə verilən subsidiyalardan, gübrə və motor yağlarına görə dövlət tərəfindən ayrılan vəsaitdən bəhrələnən kənd sakinləri buna görə ölkə başçısına minnətdarlıq edirlər.

## *Rusiya səfiri Novosaratovkada yaradılan şəraitdən məmnun qaldı*

Keçən il Rusiya Federasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vladimir Doroxin bölgələrlə tanışlıq məqsədilə Gədəbəydə - Novosaratovkada məskunlaşan həmyerliləri ilə görüşərkən razılığını ifadə etdi. Kənd icma liderlərindən biri olan Nikolay Bıçkova məxsus mənzil-muzeydə keçirilən görüşdə Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Yediyarov rayonda yaşayan müxtəlif millətlərin nümayəndələrinə, eləcə də malakanlara göstərilən dövlət qayğısından danışdı. Diqqətə çatdırdı ki, iki əsrdir rayonda məskunlaşan malakanlar Azərbaycanı ikinci vətənləri hesab edirlər.

Səfir kəndlə, insanların həyat və məişət şəraiti, sosial vəziyyətləri ilə yaxından tanış olduqdan sonra həmyerlilərinə göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlıq etmişdir.

## *Vladimir Koveşnikov - kəndin şəhid övladı*

Ermənilər torpaq iddiası ilə Azərbaycana qarşı müharibəyə başlayanda Vladimir orta məktəbi yenicə bitirmişdi. Ədalətsiz müharibənin getdiyi ərəfədə ona rayon hərbi komissarlığından çağırış vərəqəsi gəldi. Vladimir tərəddüd etmədən komissarlığa yollandı və əlinə fürsət düşübmüş kimi xahiş etdi ki, onu cəbhə bölgəsinə göndərsinlər. Lakin o, hərbi təlimlərə cəlb edildi. Döyüş sirlərini mənimsədikdən sonra düşmənlə döyüşlərə qatıldı.

Bir il cəbhədə döyüşdü. Neçə-neçə erməni yaraqlısını məhv etdi. Lakin günlərin birində ağır güllə yarası alan gənc Vladimir həyatla vidalaşdı. Doğulub boya-başa çatdığı, canı qədər sevdiyi Novosaratovka kəndində torpağa tapşırıldı. İndi vaxtilə təhsil aldığı məktəbdə onun şərəfinə “Qəhrəmanlar unudulmur” adlı foto-guşə yaradılıb. Şagirdlər tez-tez guşəyə toplaşaraq müəllimlərinin Vladimirin qəhrəmanlığından bəhs edən söhbətlərinə qulaq asırlar.

## *Nikolay Bıçkovun mənzil-muzeyi*

Nəinki Novosaratovkada, eləcə də Gədəbəydə Nikolay Bıçkovu tanımayan yoxdur. O, öz ata-baba yurdunda maraqlı muzey yaradıb. Yuz illik tarixi olan məişət əşyalarını, şəkilləri toplayaraq xüsusi guşə yaradıb. Kəndə gələn turistlər muzeyə və həmin eksponatlara böyük maraqla baxırlar. Rayon tədbirlərində həvəslə iştirak edən bu kolleksiyaçı Azərbaycan Prezidenti İlham Əliyevlə olan görüşündən bəhs edərək söylədi ki, bizim hər birimiz dövlət başçısı ilə fəxr edirik. Mən 2006-cı ildə Gədəbəyə səfər edən ölkə rəhbəri ilə Slavyankada görüşdüm. Ona Azərbaycanın inkişafı naminə gördüyü işlərə görə minnətdarlıq etdim. Prezident məndən istəyimi soruşanda, dedim ki, cənab Prezident birinci istəyim Dağlıq Qarabağı yağı düşməndən azad etmək, ikinci istəyim isə kəndimizə qaz çəkilməsidir. Cənab İlham Əliyev elə həmin anda bu işin görülməsi üçün tapşırıq verdi. Az müddət ərzində kəndə qaz çəkilişi aparıldı və mənzillərə mavi yanacaq verildi.

Mənzil-muzeyin eksponatlarından danışan Nikolay Bıçkov onu da əlavə etdi ki, bura xaricdən çoxlu sayda turist gəlir və gələnlərin hər biri muzeyin qədim əşyalarına heyranlıqla tamaşa edir. Bir dəfə İngiltərədən gələn turist qadın məndən qədim bir əşyanın ona satılmasını xahiş etdi. Mən hər gələn turistə eksponat satsam, burada nə qalar ki - dedim. İngilis xanım mənimlə razılaşdı.

## *Azərbaycan xalqına minnətdarıq...*

Nikolay Bıçkov həm də Novosaratovkada yaşayan malakanların icma rəhbəridir. Söhbət zamanı dedi ki, kənddə yaşayan malakanların ayrıca qəbiristanlığı, məbədi və ibadət yeri var. Bakı-Novosaratovka marşrutu ilə avtobus işləyir. Kənddə təqaüdçülər üçün bankomat da quraşdırılıb. Sağ olsun rayon rəhbərliyi bizim üçün hər cür şərait yaradıb. Ümumiyyətlə, tez-tez kənddə olan rayon rəhbərliyi onların problemləri ilə maraqlanır, lazım gəldikdə kömək göstərir.

Azərbaycan dilində sərbəst danışan Nikolay Bıçkov ayrılanda gülə-gülə Səməd Vurğunun “Azərbaycan” şeirindən - “Ayrılarmı könül candan, Azərbaycan, Azərbaycan” misralarını söylədi və gülümsəyərək “Azərbaycan xalqına minnətdarıq” - dedi.








***Sabir ƏLİYEV,***
***“Azərbaycan”ın bölgə müxbiri***